Azərbaycan Respublikasının Prezidenti
yanında Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

Azərbaycan Tarixçiləri
İctimai Birliyi



İrəvan
XANLIĞI



# İRƏVAN XANLIĞININ MAHALLARI

Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur

Layihə rəhbəri,
Ön sözün müəllifi və
elmi redaktor: **Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı Laureatı*

Rəyçi: **İradə Məmmədova**
*tarix üzrə fəlsəfə doktoru*

Texniki redaktor: **Mehri Xanbabayeva**
*riyaziyyat üzrə fəlsəfə doktoru*

**Güntəkin Nəcəfli**
***İrəvan xanlığının mahalları.*** Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2017. - 40 s.

ISBN 978-9952-8268-3-8

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2017

Azərbaycan
Respublikasının
Prezidenti

**İLHAM ƏLİYEVİN**

təşəbbüsü
ilə yazılmışdır.

Bilirsiniz ki,
alimlərimiz mənim təşəbbüsümlə
İrəvan xanlığı haqqında böyük
elmi əsər yaratmışlar. Bunun çox böyük
əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox
faktoloji və elmi məsələləri əks etdirir.
Hesab edirəm ki, daha geniş
auditoriyaya çatdırmaq üçün
kiçik həcmli broşürlər də buraxılmalıdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Azərbaycanın diplomatik xidmət*
*orqanları rəhbərlərinin beşinci*
*müşavirəsindəki nitqindən.*
*7 iyul 2014-cü il*



# Oxuculara

İndiki Ermənistan Respublikasının yerləşdiyi ərazi hürri, hett, kimmer, skif, sakların yaşadığı, "Kitabi-Dədə Qorqud" boylarının yarandığı və dastanda təsvir olunan bir çox mühüm tarixi hadisə və proseslərin cərəyan etdiyi, Çuxursəd əmirliyinin təşəkkül tapdığı, Çuxursəd Bəylərbəyiliyinin mövcud olduğu, yaxın keçmişdə–XIX əsrin əvvəllərində Azərbaycan dövləti olan İrəvan xanlığının əhatə etdiyi torpaqlardır. Bu torpaqların ən qədim yerli əhalisi–aborigenləri Azərbaycan türkləri idi. Lakin Böyük güc mərkəzlərinin siyasəti nəticəsində 1918-ci ildə İrəvan şəhəri ermənilərə güzəşt edildi. Beləliklə, Cənubi Qafqazda tarixdə ilk dəfə olaraq erməni dövləti yaradıldı.

İlk mənbələr təsdiq edir ki, ayrı-ayrı imperiyaların hökmranlıq dövrləri istisna edilməklə, müasir Ermənistan Respublikasının ərazisi ən qədim zamanlardan başlayaraq həmişə Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Bu ərazi sonrakı tarixi dövrlərdə də Azərbaycan sülalələri olan Sacilər, Salarilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və Əfşarların idarə etdikləri Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Orta əsrlərdə Azərbaycan hakimləri olan Çuxursəd əmirləri və İrəvan xanlarının idarə etdikləri bu torpaqlar, həm də, Azərbaycan-türk tayfalarının elliklə və ən sıx şəkildə yaşadığı regionlardan biri idi.

Böyük Azərbaycan sərkərdəsi Nadir şahın yaratdığı Əfşar imperatorluğunun dağılmasından sonra tarixi Azərbaycan torpaqlarında yaranmış yerli dövlətlərdən–Azərbaycan xanlıqlarından biri də İrəvan xanlığı idi. İrəvan xanlığı Şi-

mali Azərbaycanın qərbində–keçmiş Azərbaycan Səfəvi imperatorluğunun inzibati-ərazi vahidlərindən biri olan Çuxursəd bəylərbəyliyinin ərazisində yaranmışdı.

Rusiya müstəmləkəçiləri Qacarlar İranına və Türkiyəyə qalib gəldikdən sonra, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian-istinadgah məntəqəsi yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan ermənilәri kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, əsasən İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə köçürdü. İrəvan xanlığını işğal etmiş general Paskeviç İrandan köçürülən ermənilərin "İrəvana istiqamətləndirilməsi və həmin ərazidə xristian əhalinin sayının mümkün qədər artırılması" barədə konkret göstəriş də vermişdi.

İrəvan xanlığının çar Rusiyası tərəfindən işğalından sonra Qacarlar İranı və Osmanlı dövləti ərazilərindən kütləvi şəkildə köçürülüb gətirilən ermənilər həmin dövrdən başlayaraq keçmiş İrəvan xanlığına məxsus bütün tarixi adlara qarşı vandalizm aktı həyata keçirdilər. Çünki İrəvan xanlığına yaşayan əhalinin mütləq əksəriyyəti türk-müsəlman olduğu üçün bu ərazidəki bütün tarixi adlar – toponimlər, hidronimlər, oronimlər, oykonimlər əhalinin yaşadığı ərazilərin coğrafi relyefinə və tayfa birliklərinin adlarına uyğun şəkildə formalaşmışdı. Bu isə ermənilərin özlərini işğal olunmuş Azərbaycan torpaqlarının "aborigen sakinləri" olduqlarını iddia etməsinə mane olurdu.

Sovet hakimiyyəti illərində Azərbaycan torpaqları hesabına durmadan öz ərazilərini genişləndirən ermənilər, digər



tərəfdən, yenə də Moskvanın fəal köməyi ilə azərbaycanlıların öz ata-baba torpaqları olan Qərbi Azərbaycandan (indiki Ermənistan Respublikası ərazisindən) deportasiyasını da həyata keçirməyə başladılar. Bu siyasət davamlı olaraq və məqsədyönlü şəkildə aparıldı. Belə ki, azərbaycanlılar öz doğma torpaqlarında ana dilində təhsil almaq hüququndan məhrum edildilər. Azərbaycan xalqına məxsus minlərlə yer adları dövlət səviyyəsində verilmiş fərmanlar əsasında erməni adları ilə əvəz olundu. Azərbaycanlılara məxsus ənənəvi təsərrüfat sahələri ləğv olundu. Minillərlə tarixi olan Azərbaycan qəbristanları əkin sahələrinə çevrildi. Yüzlərlə karvansaralar, məscidlər, mədrəsələr, minarələr, hamamlar və digər tarixi-memarlıq abidələri məhv edildi.

**"İrəvan xanlığının mahalları"** adlanan bu kitabçada oxuculara Azərbaycanın qədim dövlətçilik tarixinin ayrılmaz parçası olan İrəvan bölgəsinin, o cümlədən Çuxursəd bəylərbəyliyinin və İrəvan xanlığının inzibati bölgüsü təqdim edilmişdir. İnzibati bölgüdə adı çəkilən yer-yurd adlarının mütləq əksəriyyətinin Azərbaycan türkcəsində olması həmin ərazilərin köklü sakinlərinin azərbaycanlılardan ibarət olması faktını bir daha təsdiqləyir. Erməni vandalları dəfələrlə bu adları dəyişib yox etməyə, tarix səhnəsindən silməyə çalışsa da unudurlar ki, tarixin yaddaşını məhv etmək mümkün deyildir!

**Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı laureatı*

## İrəvan xanlığının mahalları

Böyük Azərbaycan sərkərdəsi Nadir şahın yaratdığı Əfşar imperatorluğunun dağılmasından sonra tarixi Azərbaycan torpaqlarında yaranmış yerli dövlətlərdən – Azərbaycan xanlıqlarından biri də İrəvan xanlığı idi. İrəvan xanlığı Şimali Azərbaycanın qərbində–keçmiş Səfəvi imperatorluğunun inzibati-ərazi vahidlərindən biri olan Çuxursəd bəylərbəyliyinin ərazisində yaranmışdı.

***İrəvan xanlığı Azərbaycanın dövlətçilik tarixinin ayrılmaz ayrılmaz tərkib hissəsidir***

İrəvanın xanlığının ərazisini əhatə edən Çuxursəd vilayətinin adı ilə bağlı elmi fikirlərin hamısı həmin bölgənin adının qədim Azərbaycan türk tayfalarının adından götürülməsini təsdiq edir. Bu inkarolunmaz tarixi faktdır ki, Azərbaycan tayfalarından biri olan Səədli və ya Sədlilər Qaraqoyunlu tayfa birliyinə daxil idi.

XIV əsrdə yaşamış Qaraqoyunlu tayfa başçısı Əmir Səədin hakimiyyəti altında birləşmiş Azərbaycan–türk tayfaları XIV əsrin sonlarından başlayaraq Sədli adlandı. Elə bu dövrdən də Şimal-qərbi Azərbaycanın Arazyanı ***Sürməli*** vadisindəki ərazisi (indiki Ermənistan Respublikasının Yerashadzor* kəndi və onun ətrafı) ***Çuxursəd*** adlanmağa başladı. Çuxursədin tarixi Azərbaycan torpağı olduğunu erməni mənbələri də təsdiq edir. Erməni mənbələri buranı ***"Sahata***

* Yerashadzor (Երասխատչոր) kəndinin adı Azərbaycan dilindən erməni dilinə tərcümə olunub və mənası "Arazyanı çuxur", "Arazyanı dərə" deməkdir.



***pos"–"Səhədin çuxuru"***, yaxud da ***"Yerkrin Sahat"–"Səhədin ölkəsi"*** adlandırırlar[1].

Çuxursəd toponimi rəsmi sənədlərdə ilk dəfə 1428-ci ildə Üçkilsə (Vağarşapat) kəndinə sahibliklə bağlı ərəbdilli sənəddə xatırlanır.[2] Arpaçayın Arazla qovuşduğu yerdən Naxçıvan və Arazın sağ sahilində yerləşməklə Ağrıdağa qədər əraziləri əhatə edən Sürməli Sədli tayfasının qədim yurdu idi. XV əsrdə Arazboyu torpaqları əhatə edən və Ağrıdağla Alagöz dağları arasındakı vadi də Səədli oymağına daxil idi. Teymuri tarixçisi Hafiz Ebru Sultan Şahruxun Azərbaycana yürüşlərindən bəhs edərkən Naxçıvan və Sürməli bölgəsinin Səədli oymağının qədim yurdu olduğunu qeyd etmişdir.[3]

1410-cu ildə Azərbaycan sülaləsi Qaraqoyunlular Təbrizdə hakimiyyətə gələrkən ***Sədlilər*** sülaləsi İrəvan bölgəsinin sahibi idilər. Bu zaman Çuxursəd vilayəti şimalda Gürcüstanla (Gürcüstan 1469-cu ildə parçalandıqdan sonra Kartli çarlığı ilə), Şərqdə Qarabağ vilayəti ilə, qərbdə Samsxe-Saatabaqo,* Pasin, Ələşgird və Bayəzidlə, cənubda isə Naxçıvan, Qapan və Maku ilə həmsərhəd idi.

---

[1] Գրիգորյան Վ.Ռ. Երեվանի խանությունը 18-րդ դարի վերջում, Երեվան, 1958: էջ, 26 [Qriqoryan V.R. İrəvan xanlığı XVIII əsrin sonlarında (1780-1800), İrəvan, 1958, s.26]; İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009, s.38.

[2] Мамедов С.А. Азербайджан по источникам XV-первой половины XVIII вв. Баку, 1993, с.140.

[3] Hafız Ebru. Zubdet ut-tevarıx. Fatıh Ktb. 4371, v. 562 b, s.562; İrəvan xanlığı.., s.38.

* Samsxe-Saatabaqo bölgəsinin adı Azərbaycan dilindən gürcü dilinə tərcümə olunub və mənası "Üçqala-Atabəy yurdu", deməkdir.

Tarixi şəraitdən asılı olaraq Çuxursəd vilayətinin sərhədləri dəfələrlə dəyişmişdir. XVI əsrin əvvəlində mərkəzi Təbriz şəhəri olan mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövləti yarandı. Azərbaycanın başqa bölgələri kimi Çuxursəd də Səfəvi dövlətinin tərkibinə daxil oldu. XVI əsrin 30-cu illərində Azərbaycan Səfəvi dövlətinin ərazisi inzibati cəhətdən 13 vilayətə – bəylərbəyliyə bölündü. Bunlardan biri də mərkəzi İrəvan (Rəvan) qalası olan ***Çuxursəd bəylərbəyliyi*** idi.

Çuxursəd bəylərbəyliyinə ***Maku, Sədərək, Naxçıvan*** (XVII əsrin əvvəllərindən) vilayətləri, ***Zaruzbilə, Bayəzid qalası, Şadılı*** tayfasına məxsus torpaqlar, Osmanlı fəthləri zamanı bu bölgələrə köçürülmüş Dümbuli kürdlərinin yaşadıqları torpaqlar* və ***Mağazberd*** daxil idi.[1]

XVI əsrin əvvəllərindən başlayaraq Səfəvi-Osmanlı sərhədində yerləşən Çuxursəd bəylərbəyliyinin tarixində ən ağır dövr başlandı. Bəylərbəyliyin ərazisi və onun mərkəzi İrəvan qalası öz aralarında qanlı müharibələr aparan iki qardaş türk imperiyaları olan Səfəvilərlə Osmanlılar arasında müharibə meydanına çevrildi, dəfələrlə əldən-ələ keçdi.

1578-1590-cı illərdə baş vermiş növbəti Səfəvi-Osmanlı müharibəsi 1590-cı ildə İstanbulda imzalanmış sülh müqaviləsi ilə nəticələndi. İstanbul müqaviləsi nəticəsində Azərbay-

---

*Çuxursəd bəylərbəyliyi ərazisində məskunlaşdırılan kürd tayfaları bu yerlərə XVI əsrin sonlarında Səfəvi-Osmanlı müharibələrinin gedişi zamanı Osmanlı sultanları tərəfindən Diyarbəkr və Dəclə sahillərindən köçürül¬müşdü. Bax: İrəvan xanlığı.., s.40.

[1] Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XIX - на¬ча¬ле XX вв. Ленинград, 1949, с.14.

can ərazisi Osmanlı və Səfəvi dövlətləri arasında bölündü. Şirvan, Qarabağ, Təbriz və onun ətraf bölgələri, Sərab, Marağa, Çuxursəd (İrəvan) Osmanlı dövlətinin tərkibinə keçdi.

1590-cı ilin payızında (19-29 Məhərrəm 999 // 17-27 noyabr 1590) Osmanlı dövlət məmurları tərəfindən tərtib edilmiş İrəvan əyalətinin Müfəssəl dəftərinə görə həmin dövrdə ***Çuxursəd bölgəsi Talın, Abaran (Ağcaqala), Aralıq (Şərabxana) İrəvan, Naxçıvan və Ordubad*** əyalətlərini əhatə etmişdir.[1]




***Şəkil 1.***
*1590-cı il "Müfəssəl dəftər"ə görə Çuxursəd əyalətinin inzibati bölgüsü*

---

[1] BOA TTD, 633, s.16-24; Selcuk İlğaz. Osmanlı Hakimiyyetinde Revan (Çukur Sa'ad) (XVI-XVIII Yüzyıllar Arasında Soosyo-Ekonomik Tarih). Doktora Tezi, Erzurum, 2010, s.16.





1635-1639-cu illər Səfəvi-Osmanlı müharibələri nəticəsində Çuxursəd bəylərbəyliyi öz ərazisinin təqribən yarısını itirdi. XIV-XVI əsrlərdə ona məxsus olan ərazilərdən yalnız İrəvan və Şərqi Şörəyel bəylərbəyliyin əlində qaldı. I Şah Abbasın ölümündən sonra da Çuxursədin ərazisində dəyişikliklər baş verdi. Belə ki, I Şah Səfi 1629-1634-cü illər arasında bir sıra vilayətlərin sərhədlərində dəyişikliklər etdi. Bu zaman o, Naxçıvan və Makunu Çuxursədin tərkibinə keçirmiş, Pəmbək və Borçalını isə onun tərkibindən çıxararaq Qarabağ bəylərbəyliyinin tərkibinə daxil etmişdi. E.Çələbinin məlumatına görə Maku İrəvan (Çuxursəd) bəylərbəyliyinin tərkibində ayrıca sultanlıq idi[1]

XVII əsrin 30-cu illərindən XVIII əsrin 20-ci illərinə qədər olan dövrdə Çuxursəd bəylərbəyliyi ***İrəvan, Şərqi Şörəyel, Naxçıvan və Maku*** əyalətlərini əhatə etmişdir. XVI-XVIII əsrin birinci rübü ərzində İrəvan əyaləti sabit sərhədlərə malik olmuşdur. Bu əyalətin ərazisi Arazın hər iki sahilində (çox hissəsi sol sahilində) yerləşirdi.[2]

XVIII əsrin I rübündə baş vermiş növbəti Səfəvi-Osmanlı müharibəsi 1724-cü ildə İstanbulda imzalanmış sülh müqaviləsi ilə nəticələndi. Müqavilənin şərtinə görə Azərbaycan ərazisi Osmanlı və Rusiya dövlətləri arasında bölündü. İrəvan (Çuxursəd) bəylərbəyliyi 10 ildən çox osmanlıların hakimiyyəti altında qaldı. Osmanlılar işğal etdikləri Azərbaycan ərazilərində öz inzibati idarə sistemlərini tətbiq edərək əyalətləri ***sancaqlara,*** onları isə ***nahiyələrə*** bölmüşdü.

---

[1] İrəvan xanlığı.., s.42.

[2] İrəvan xanlığı.., s.43.



Keçmiş Çuxursəd bəylərbəyliyinin ərazisi iki livaya - ***İrəvan və Naxçıvan*** livalarına bölünmüşdü. ***İrəvan livasına 10 nahiyə daxil idi: İrəvan, Qərbi, Gərni, Vedi, Aralıq, Talın, Ərmus, Ərmavi, Abnik, Abaran, Şərabxana. Naxçıvan livası isə 16 nahiyədən (Ağcaqala, Məvaziyi-Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərənürgüt, Dərəşahbuz, Bazarçay, Şərur, Şorlu, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad)*** və 1 qəzadan – Naxçıvan qəzasından (sancağından) ibarət idi.[1] Bu zaman Maku, İğdır, Sürməli nahiyələri ilə yanaşı Zar, Zəbil və Şərur nahiyələri də Naxçıvan sancağının tərkibindən çıxarılaraq İrəvan əyalətinə birləşdirilir. Eyni zamanda İrəvan əyalətinin ərazisində Göyçə, Məzrəə, Xınzirək, Qırxbulaq, Dərəçiçək, Sədərək nahiyələri və Şörəyel livası yaradılmışdı. XVI əsrin sonunda mövcud olmuş Talın, Ərmus, Abnik, Şərabxana nahiyələri, eləcə də Naxçıvan sancağının ərazisindəki Bazarçay və Ağcaqala nahiyələri ləğv olunmuşdu.[2]

Beləliklə də, 1728-ci ildə osmanlılar siyahıyaalma keçirərkən İrəvan əyalətinin və Naxçıvan sancağının quruluşu aşağıdakı kimi idi: İrəvan əyaləti – İrəvan şəhəri, Qırxbulaq, Qərbi, Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrəə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri və Şörəyel livası; Naxçıvan sancağı – Naxçıvan şəhəri, Əlincə, Məvazi, Dərəşahbuz, Mülki-Arslan,

---

[1] İrəvan əyalətinin icmal dəftəri. (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad.Z.Bünyadov, t.e.n.H.Məmmədov). Bakı, 1996, s.9; İrəvan xanlığı.., s.47.

[2] İrəvan əyalətinin icmal..., s.9.

Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan nahiyələri.[1]




**Şəkil 2.** *1727-ci il "Müfəssəl dəftər"ə görə Çuxursəd əyalətinin inzibati bölgüsü*

### *İrəvan xanlığının inzibati ərazi bölgüsü*

Nadir şahın (1736-1747) dövlət daxilində həyata keçirdiyi ilk tədbirlərdən biri inzibati idarəçilik islahatı oldu. O, tarixi Azərbaycan torpaqlarında bu vaxtadək mövcud olan inzibati-ərazi bölgüsünü – Şirvan, Qarabağ, Azərbaycan və Çuxursəd bəylərbəyiliklərini ləğv etdi. Dörd bəylərbəyiliyin əvəzinə mərkəzi Təbriz şəhəri olmaqla vahid Azərbaycan vilayəti yaradıldı. Beləliklə, Nadir şah bütün Azərbaycan torpaqlarını inzibati cəhətdən vahid vilayətin tərkibində birləşdirdi.

Nadir şahın sui-qəsd nəticəsində öldürülməsindən sonra tarixi Azərbaycan torpaqlarında yaranan müstəqil dövlət qurumlarından biri olan İrəvan xanlığı Şimali Azərbaycanın cənub-qərb torpaqlarını əhatə edirdi. İrəvan xanlığı məhsuldar Ağrı vadisini öz hüdudları daxilinə almaqla şimaldan

[1] İrəvan əyalətinin icmal..., s.9.



Şörəyel, Pəmbək, Şəmşəddil, Qazax sultanlıqları, şimal-şərqdən Gəncə xanlığı, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənubdan Xoy xanlığı və Bayəzid bölgəsi, qərbdən Qars paşalıqları ilə həmsərhəd idi.

İrəvan xanlığının tarixi-coğrafi sərhədləri haqda müxtəlif məlumatlar mövcuddur. N.Dubrovin qısa şəkildə olsa da, İrəvan xanlığının sərhədlərini təsvir etmişdir. Müəllif İrəvan xanlığının şimaldan Pəmbək, Şəmşəddil, Qazax sultanlıqları və Gəncə xanlığı, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənub və qərbdən isə İran və Osmanlı əraziləri ilə həmsərhəd olduğunu yazır.[1] S.D.Burnaşev isə İrəvan xanlığının şimaldan və şimal-şərqdən Gürcüstanla, qərbdən Türkiyə, cənubdan isə Naxçıvanla həmsərhəd olduğunu qeyd edir. Lakin müəllif İrəvan xanlığının qonşu dövlətlərlə olan sərhədlərini təsvir edərkən yalnış olaraq xanlığın yalnız Arazın sol sahilində yerləşdiyini göstərir.[2] Müxtəlif mənbələrin təsvirlərində İrəvan xanlığının Araz çayının əsasən sol sahilində, qismən isə sağ sahilində yerləşməsini izləmək mümkündür.[3]

[1] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. т.I, (кн.II- III), СПб., 1871, с.327; İrəvan xanlığı.., s.141.

[2] Бурнашев С. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, 1793, с.17.

[3] Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб., 1852, с.351-353; Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. т.I, (кн.II- III), СПб., 1871, с.327; Обозрение российских владений за Кавказом встатистическом, этнографическом, топографическом и финансовом отношениях ОРВЗ (Составил Лекгобытов). ч.ч IV. СПб., 1836, с.253.

Hüseynəli xanın hakimiyyəti illərində (1762-1783) İrəvan xanlığının sərhədləri daha da genişlənərək Şörəyel bölgəsini də əhatə etmişdi. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar Pəmbək, Qazax və Borçalını xüsusi fərmanla irəvanlı Məhəmməd xanın ixtiyarına vermişdi.

İrəvan xanlığı inzibati cəhətdən mahallara bölünürdü. Mahalları mahal bəyləri və ya naiblər idarə edirdilər. Mahal bəyi və ya naib vəzifəsi irsi idi. Lakin yeni mahal bəyi və ya naib hər dəfə xan tərəfindən təsdiq edilirdi. Naiblər mahalın inzibati, mühafizə və bəzən məhkəmə işlərinə də cavabdeh idilər.

Mahallar isə daha kiçik inzibati vahidlərə –kəndlərə bölünürdü. Kəndlər yüzbaşı və kəndxudalar tərəfindən idarə olunurdu. Xanlığın idarəetmə sistemində çalışanlar, demək olar ki, aylıq məvacib almırdılar. Onlara xidmətləri müqabilində məvacib xəzinə üçün toplanan vergi hesabına ödənilirdi.

İrəvan xanlığının ərazisi əvvəllər inzibati cəhətdən 12 mahala bölünmüşdü. Sonralar Hüseynəli xan daha 3 yeni mahal yaradılaraq mahalların sayını 15-ə çatdırdı. Xanlıq mahallara bölünərkən xanlıq ərazisindəki suvarma sistemindən bütün mahalların istifadə edə bilməsi nəzərə alınmışdı. Bu da xanlıq ərazisində kənd təsərrüfatının inkişafı üçün həlledici əhəmiyyətə malik idi.

***İrəvan xanlığına aşağıdakılar mahallar daxil idi:***

**QIRXBULAQ MAHALI.** Bu mahal İrəvan şəhərinin şimal və cənubunu əhatə edirdi. Cənubdan Araz çayı, şi-

---

[1] Bax: İrəvan xanlığı..,. s.146-147.




*Şəkil 3.* *Qırxbulaq mahalı*

maldan Dərəçiçək, qərbdən Gərnibasar, şərqdən Gərni-Vedibasar mahalları ilə həmsərhəd idi. XVIII əsrin sonunda bu mahal ayrı-ayrılıqda ***Qırxbulaq və Zəngibasar*** mahalları kimi verilir. İrəvan xanı Məhəmməd Hüseyn xan Qacara (1785-1804) məxsus olan mülklərin siyahısından da məlum olur ki, Zəngibasar kəndlərinin çoxu Qırxbulaq mahalının içərisində verilmişdir.[1]

XIX əsrin birinci rübünə aid mənbədə Qırxbulaq mahalı artıq iki adla təqdim olunur: ***Qırxbulaq mahalı və Zəngibasar mahalı***.[2]

İ.Şopen Qırxbulaq mahalına məxsus 48 kənd qeydə almışdır və bu kəndlərdən 26-sının artıq dağıldığını qeyd edir.[3] Məhz bu məlumata əsaslanan C.Bornoutyan mərkəzi ***Kənəkir*** olmaqla bu mahala 22 kəndin daxil olduğunu qeyd edir.[4]

---

[1] Bax: Qriqoryan V.R. Göstərilən əsəri, s.33.
[2] Şopen İ.İ. Göstərilən əsəri, s. 442.
[3] Şopen İ.İ. Göstərilən əsəri, s.509-510, 543-544.
[4] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s. 442.





**ZƏNGİBASAR MAHALI**. XVIII əsrdə Qırxbulaq mahalının tərkibində olan Zəngibasar mahalı da artıq XIX əsrdə tamamilə ondan ayrılmışdı. İ.Şopen Zəngibasar mahalına məxsus 33 kənd qeydə almışdır və bu kəndlərdən 7-sinin artıq dağıldığını qeyd edir.[1] Məhz buna görə C.Bornoutyan Zəngibasar mahalına mərkəzi ***Uluxanlı*** olmaqla 26 kəndin daxil olduğunu yazır.[2]



***Şəkil 4.*** *Cəfərabad kəndindəki Əmir Səad məqbərəsi*




***Şəkil 5.*** *Zəngibasar mahalı*

[1] Şopen İ.İ. Göstərilən əsəri, s.510, 547-548.

[2] Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828, Mazda Publishers in as¬soc¬iation with Bibliotheca Persica, Costa Mesa, California and New York, 1992, p.35.




*Şəkil 6.* *Gərnibasar mahalı*

**GƏRNİBASAR MAHALI**. Bəhs edilən dövrdə Gərni-Vedibasar mahalı birləşmiş mahal olub Azad çayından (Gərniçay) suvarılan və Arazdan şimala tərəf olan torpaqları, həmçinin Vediçay və Qapançay hövzəsindən suvarılan vadiləri əhatə edirdi. Şimaldan Göyçə, şərqdən Şərurla həmsərhəd idi.[1] Bu mahal da sonralar iki yerə – ***Gərnibasar və Vedibasar mahallarına*** bölünmüşdü.[2]

Araz çayının sol sahilində yerləşən **Gərnibasar** mahalı şimaldan Qırxbulaq, qərbdən Zəngibasar, cənubdan qismən Araz çayı və Vedibasar mahalı, şərqdən isə Göyçə mahalını ondan ayıran yüksək dağlarla həmsərhəd idi. İ.Şopen Gərnibasar mahalına məxsus 95 kənd qeydə alınmışdır və bu kəndlərdən 3-nün artıq dağıldığını qeyd edir.[3] C.Bornoutyan isə dağıdılmayan kəndləri nəzərdə tutaraq Gərnibasar mahalına mərkəzi **Qəmərli** olmaqla 52 kəndin daxil olduğunu yazır. Ərazisindən axan **Gərni çayı** bütün mahalı su ilə təmin edirdi.[4]

---

[1] Bax: Qriqoryan V.R. Göstərilən əsəri, s.34:
[2] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.442-443.
[3] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.442, 510-511, 547-555.
[4] Bournoutyan G.A. Göstərilən əsəri, s.35.




*Şəkil 7. Vedibasar mahalı*

**VEDİBASAR MAHALI.** Araz çayının sol sahilində yerləşən Vedibasar mahalı şimaldan Gərnibasar, qərbdən Araz çayı, cənub və cənub-şərqdən qərbdən Araz çayı, cənub və cənub-şərqdən Şərur mahalı və Naxçıvan xanlığı, şərqdən Göyçə mahalı ilə həmsərhəd idi. Vediçay və Qapan çayı mahalı su ilə təmin edirdi.[1] İ.Şopen Vedibasar mahalına məxsus 54 kəndi qeydə almış və bu kəndlərdən 33-nün artıq dağıldığını qeyd edir.[2] Məhz buna görə də, C.Bornoutyan mərkəzi Dəvəli olan Vedibasar mahalına 21 kəndin daxil olduğunu yazır.[3]




*Şəkil 8. Şərur mahalı*

**ŞƏRUR MAHALI.** İrəvan xanlığının cənub-şərqində yerləşən bu mahal şimaldan Vedibasar mahalı, qərbdən Araz çayı, cənubdan və cənub-şərqdən Naxçıvan xanlığına aid olan ərazilərlə həmsərhəd idi. Şərq hissəsi

[1] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.442-443.
[2] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.555-556.
[3] Bournoutyan G.A. Göstərilən əsəri, s.35..



Arpaçay vasitəsilə iki yerə bölünürdü.[1] İ.Şopenin siyahıya almasında 61 kənddən ibarət olan bu mahalın 11 kəndi tamamilə dağıdılmışdı.[2] C.Bornoutyana görə mərkəzi Əngiçə olan bu mahal 50 kəndə nəzarət edə bilirdi. Arpaçay mahalın bütün suvarma sistemini təmin edirdi.[3]



***Şəkil 9.*** *Əxi Təvəkkül zaviyəsinin xarabalıqlarının görünüşü (XII əsr).*

**SÜRMƏLİ MAHALI.** İrəvan xanlığının cənub-qərb ərazilərini əhatə edən bu mahal Araz çayının sağ sahilində yerləşirdi. Mahal şimal və şimal-şərqdən Araz çayı ilə, qərbdən Dərəkənd-Parçenis mahalı, cənubdan onu Bayəzid paşalığından ayıran Ağrıdağ silsiləsi




***Şəkil 10.*** *Sürməli mahalı*

[1] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.443.
[2] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.555-563.
[3] Bournoutyan G.A. Göstərilən əsəri, s.35.

ilə həmsərhəd idi. Əsas suvarma mənbəyi Araz çayından çəkilən arxlar olan bu mahalın İ.Şopenin təsvirinə görə 78 kəndindən 28-i tamamilə dağıdılmışdı.[1] Sürməli İrəvan xanlığının ən sıx əhalisi olan mahalı idi. Əhalisi əsasən qoyunçuluqla məşğul idi. C.Bornoutyan mərkəzi İğdır olan bu mahalın 49 kəndi əhatə etdiyini qeyd edir.[2] Lakin Şopen Sürməli mahalında 50 kəndin yararlı olduğunu göstərir.[3]

**DƏRƏKƏND-PARÇENIS MAHALINI** Hüseynəli xan Qacar Sürməli mahalından ayraraq təşkil etmişdi. Bu mahal İrəvan xanlığının cənub-qərb qurtaracağında, Araz çayının sağ sahilində yerləşirdi. ***Dərəkənd-Parçenis mahalı*** şimaldan Səədli mahalı, cənub-qərbdən Osmanlı dövləti, şərqdən isə Sürməli mahalı ilə həmsərhəd idi. Yeni mahal Bayəzid sərhəddindən Araz çayına doğru uzanan Parçenis, Dərəkənd, Parnaud dərə vadilərini əhatə edirdi. Dağıdılmış 8 kənddən savayı, Parçenis dərəsində 26, Dərəkənd dərəsində isə 54




***Şəkil 11.*** *Dərəkənd-Parçenis mahalı*

[1] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.443, 512-513, 563-567.
[2] Bournoutyan G.A. Göstərilən əsəri, s.35.
[3] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.563-567.





***Şəkil 12.*** *İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra Goğb (Qoğb) duz dağının və duz mədənlərinin görünüşü Dübua de Monperenin çəkdiyi şəkil (XIX əsr)*

yararlı kənd qeydə alınmışdı.[1] Məşhur ***Göğb (Qulp)*** kəndi və eyni adlı duz mədəni burada yerləşirdi. Bu kənd artıq mahal mərkəzinə çevrilmişdi.[2]

**SƏƏDLİ MAHALI*.** Səədli mahalı şimalından Talın, qərbdən Osmanlı dövləti, cənubdan Dərəkənd-Parçenis, şərqdən isə Sərdarabad mahalı ilə həmsərhəd idi. İ.Şopen

[1] Bax: Şopen İ.İ. Göstərilən əsəri, s.443, 513, 571-574.

[2] Bax: İrəvan xanlığı..,. s.150.

* "Səədli" qədim türk tayfalarından birinin adıdır. Azərbaycan, Türkiyə, Gürcüstan ərazisində onlarca "Səədli" adlı yaşayış məntəqələri vardır. Bütün bu yaşayış məntəqələri eyni adlı türk tayfasının yadigarlarıdır. XVII əsrə aid mənbədə Səədin ölkəsi kimi qeyd olunur.




*Şəkil 18.* *Səədli mahalı*




*Şəkil 14.* *Talın mahalı*

Səədli mahalına məxsus 14 kənd qeydə almış və bu kəndlərdən 5-nin artıq dağıldığını qeyd edir.[1] Məhz buna görə də, C.Bornoutyan əsasən Səədli tayfasının yaşadığı Səədli mahalının mərkəzi Xeyribəyli olmaqla 9 kəndi əhatə etdiyini qeyd edir.[2]

**TALIN MAHALI.** İrəvan əyalətinin şimal-qərbində Alagöz dağı ilə Arpaçay arasında yerləşirdi. Bu mahal şimaldan Şörəyel, qərbdən onu Qars paşalığından ayıran Araçayla, cənubdan



Sərdarabad və Saatlı mahalları ilə, şərqdən isə Seyidli-Axsaxlı mahalı ilə həmsərhəd idi. İ.Şopen ***Talın mahalına*** məxsus 47 kənd qeydə almış və bu kəndlərdən 27-nin artıq dağıldığını qeyd edir.[1] C.Bornoutyan Talın mahalının əhalisinin çox olmadığını və cəmi 20 kəndin olduğunu qeyd edir. Mahalın mərkəzi Talından keçən ticarət yolu Tiflis vasitəsilə Qara dənizə və Rusiyaya gedirdi.[2]



**Şəkil 15.** *Azərbaycan türklərinə məxsus Talın karvansarası*




**Şəkil 16·** *Seyidli-Axsaxlı mahalı*

**SEYİDLİ-AXSAXLI MAHALI.** İki tayfanın adından götürülmüş mahal Talın mahalı sərhədlərindən baş-

[1] Şopen İ.İ. Göstərilən əsəri, c. 444, 513-514, 575.

[2] Bournoutyan G.A. . Göstərilən əsəri, s.36.

* Seyidli-Arsaxlı mahalının adının birinci hissəsi – "Seyidli" sözü qədim Səədlu tayfasının adı ilə bağlıdır. Mahalın adının ikinci hissəsindəki "Axsaxlı" sözü "axsaq", "topal" mənasında deyil, Azərbaycanın digər yaşayış məntəqələri və yer adlarında qorunub saxlanılan qədim Sak tayfalarının adı ilə bağlıdır. Əlavə məlumat üçün bax: İrəvan xanlığı..,. s.150.





layaraq Alagöz dağının cənub və şərq ətəkləri ilə Aparan mahalına qədər olan əraziləri əhatə edirdi. Alagöz dağı, Sərdarabad və Qərbibasar mahalları ilə həmsərhəd idi.[1] Mərkəzi Uşi (Üşü) olan bu mahal cəmi 20 kənddən ibarət idi. Bunlardan 11 kənd Seyidli tayfasına, 9 kənd isə Axsaxlı tayfasına məxsus idi. Burada dağıdılmış kənd qeydə alınmayıb.[2]

**SƏRDARABAD MAHALI.** Bu mahal İrəvan xanlığının ən böyük mahallarından biri idi. Sərdarabad mahalı Araz çayının şimal sahillərində, Sürməli mahalının qarşısında yerləşirdi. Mahal şimaldan Talın, qərbdən Səədli, cənubdan onu Sürməli mahalından ayıran Araz çayı, şərqdən isə Zəngibasar və Qərbi mahalları ilə həmsərhəd idi. İrəvan xanı Hüseynəli xan Qacarın göstərişi ilə yaradılan bu mahalda Hüseynqulu xan Qacarın göstərişi ilə 1810-cu ilə yaxın məşhur Sərdarabad qalası tikildi. Hüseynqulu xan Qacar burada yaşayır-




***Şəkil 17.*** *Sərdarabad mahalı*

[1] Şopen İ.İ. Göstərilən əsəri, s. 444.

[2] Şopen İ.İ. Göstərilən əsəri, s. 575-579; Bournoutian G.A. . Göstərilən əsəri, p.36.





***Şəkil 18.*** *Sərdarabad mahalı*



***Şəkil 19.*** *Sərdarabad qalası uğrunda döyüş səhnəsi*





dı.[1] Mərkəzi Sərdarabad şəhər-qalası olan bu mahalda 30 kənd qeydə alınmışdır. Bu kəndlərdən 8-i dağıdılmışdı. Qeyd etmək lazımdır ki, sonralar bu mahalda yaşayan ermənilər məhz Rusiya işğalından sonra buraya əsasən Bayəzid paşalığından köçürülənlər idi.[2]

**QƏRBİBASAR (KÖRPÜBASAR) MAHALI.** Bu mahal şimaldan Seyidli-Axsaxlı mahalı, qərbdən Sərdarabad, cənubdan Zəngibasar, şərqdən onu Qırxbulaq mahalından ayıran Zəngi çayı ilə, şimal-şərqdən isə qismən Dərəçiçək mahalı ilə həmsərhəd idi. Gərni çayı ilə suvarılan bütün torpaqlar bu mahala daxil idi. Qərbi mahalda 49 kənd qeydə alınmışdır. Bu kəndlərdən 9-u dağıdılmışdı.[3] ***Abaran-su, Qərbi çayı və Araz çaylarının*** qolu mərkəzi Əştərək olan Qərbibasar mahalını su ilə təmin edirdi. C.Bornoutyana gö-




***Şəkil 20.*** *Qərbibasar (Körpübasar) mahalı*

---

[1] Şopen İ.İ. Göstərilən əsəri, s. 255.
[2] Şopen İ.İ. Göstərilən əsəri, s. 255.
[3] Şopen İ.İ. Göstərilən əsəri, s. 445, 514, 583-587.

rə, xanlığın mərkəzi **İrəvan şəhəri** və erməni katolikosluğunun dini mərkəzi **Üçkilsə** bu mahalda yerləşirdi.[1] Lakin mənbələrin təsvirlərində İrəvan şəhəri heç bir mahala tebe olmayan müstəqil inzibati ərazi kimi təqdim olunur. [2]

**ABARAN MAHALI.*** İrəvan xanlığının şimal qurtaracağında yerləşən Abaran mahalına böyük Alagöz dağlarından şimala və şimal-şərqə doğru uzanan torpaqlar, Alagöz və Pəmbək dağları arasındakı ərazilər daxil idi. Mahal yüksəklikdə yerləşən torpaqları əhatə edərək Abaran-su çayının sahilində yerləşirdi. Abaran mahalı şimaldan Pəmbək, Şimal-qərbdən Şörəyel, cənubdan Seyidli-Axsaxlı, şərqdən isə Dərəçiçək mahalları ilə həmsərhəd idi. İ.Şopen *Abaran* ma-




***Şəkil 21.*** *Abaran mahalı*

[1] Bournoutyan G.A. . Göstərilən əsəri, p.37.

[2] Bax: İrəvan xanlığı..,. s.151.

* Abaran, Aparan və ya Avaran – qədim türk mənşəli tayfanın adından götürülmüşdür. Əlavə məlumat üçün bax: İrəvan xanlığı..,. s.152.

halına məxsus 61 kənd qeydə almış və bu kəndlərdən 22-nin artıq dağıldığını qeyd edir.[1] Mahalın ərazisinin demək olar ki, daimi sakinləri az idi. Bura Gürcüstanla sərhəddə yerləşdiyindən zaman-zaman işğalçılara qarşı hərbi əməliyyatlar meydanına çevrilirdi. Mahalın 39 kəndində Böyük Çobanqara tayfası yaşayırdı. Mərkəzi ***Baş Abaran*** idi.[2]

**DƏRƏÇİÇƏK MAHALI**. Dərəçiçək mahalı gözəl iqliminə görə digər mahallardan seçilirdi. Mahal Göyçə gölündən başlayaraq Zəngi çayı və *Misgənsu** mənsəbindən Alapars kəndinə qədər uzanan dərədən ibarət idi. Dərəçiçək mahalı şimaldan Pəmbək, qərbdən Abaran, cənubdan Qırxbulaq, şərqdən Göyçə gölünün qərbində yerləşən torpaqlarla həmsərhəd idi. İ.Şopen burada




***Şəkil 22.*** *Dərəçiçək mahalı*

[1] Şopen İ.İ. Göstərilən əsəri, s. 445, 514-515, 587-592.
[2] Bournoutian G.A. . Göstərilən əsəri, p.37.
* Misgənsu çayının adı XIX əsrə aid mənbədə Misxana kimi təqdim edilir.

16 dağıdılmış kənd qeydə almışdı.[1] Mülayim iqlimə malik olan bu mahal İrəvan xanlığı əyanlarının yayda dincəldiyi yer idi. 37 kəndi əhatə edən Dərəçiçək mahalının mərkəzi ***Dərəçiçək*** idi. Mahalın suya olan tələbatını Misgənsu və Zəngi çayları ödəyirdi.[2]

**GÖYÇƏ MAHALI.*** İrəvan xanlığının şimal-şərq hissəsində yerləşən ən böyük mahalı Göyçə idi. Bu mahal Göy-




***Şəkil 23.*** *Göyçə mahalı*

---

[1] Şopen İ.İ. Göstərilən əsəri, s. 445, 514-515, 591-596.

[2] Bournoutyan G.A. . Göstərilən əsəri, p.37.

* Mahal öz adını Göyçə gölünün adından götürmüşdür. Lakin XX əsrdə ermənilər tərəfindən dəyişdirilib Sevan gölü adlandırılmışdı. Əlavə məlumat üçün bax: İrəvan xanlığı..,. s.153.






*Xəritə* ***1.*** *İrəvan xanlığının inzibati xəritəsi. 1820-ci il*

çə gölü hövzəsindəki Azərbaycan torpaqlarınının əksər hissəsini əhatə edirdi. Mahal şimaldan Şəmşəddil sultanlığı, Gəncə xanlığı, şimal-qərbdən Dərəçiçək mahalı, qərbdən Qırxbulaq və Gərnibasar mahalları, cənub-qərbdən Vedibasar mahalı, cənubdan Naxçıvan xanlığı, şərqdən isə Qarabağ xanlığı ilə həmsərhəd idi. Ərazisinin böyük olmasına baxmayaraq, müharibə meydanı olduğu üçün əhalisi az idi. İ.Şopen Göyçə mahalına məxsus 126 kənd qeydə almış və bu kəndlərdən 67-nin artıq dağıldığını qeyd edir. Mahalın

yalnız 59 kəndində yaşayış qeydə alınmışdı.[1] Əhalisi əsasən maldarlıqla məşğul olan bu mahalın mərkəzi ***Kəvər**** idi.[2]

*Cədvəl 1*

Rusiya işğalından əvvəlki dövrdə İrəvan xanlığının mahalları

| № | Mahalların adı | Mahalların mərkəzi |
|---|---|---|
| 1 | Qırxbulaq | Kənəkir |
| 2 | Zəngibasar | Uluxanlı |
| 3 | Gərnibasar | Qəmərli |
| 4 | Vedibasar | Dəvəli |
| 5 | Şərur | Əngicə |
| 6 | Sürməli | İğdır |
| 7 | Dərakənd — Parçenis | Goğb (Qulp) |
| 8 | Səədli | Xeyribəyli |
| 9 | Talın | Talın |

[1] Şopen İ.İ. Göstərilən əsəri, s. 446, 515-517, 596-600.

* Kəvər toponimi xəzər-türk tayfası olan Kəbərlərin adı ilə bağlıdır. Ermənilər Urartu dilindəki qiura (torpaq, ərazi) termini əxz edərək sonralar Qavar şəklinə salmış və onu Kəvər termini ilə eyniləşdirməyə çalışırlar. Əlavə məlumat üçün bax: İrəvan xanlığı..,. s.153, 159.

[2] Bournoutyan G.A. . Göstərilən əsəri, p.37.

| № | Mahalların adı | Mahalların mərkəzi |
|---|---|---|
| 10 | Seyidli-Axsaxli (Səidli) | Uşi (Üşü) |
| 11 | Sərdarabad | Sərdarabad |
| 12 | Qərbibasar (Körpübasar) | Əştərək |
| 13 | Abaran | Baş Abaran |
| 14 | Dərəçiçək | Dərəçiçək |
| 15 | Göyçə | Kəvər |

***Mənbələr:*** Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, с.441-446.

Bournoutian C.A. The khanate of Erevan under Qajar rule 1795-1828, Mazda Publishers in association with Bibliotheca Persica, Costa Mesa, California and New York, 1992. p.35-38.

Hər bir mahal ayrılıqda bir inzibati vahid idi. Mahalların idarəsi ilə iri torpaq sahiblərindən təyin olunan mahalbəyləri və ya naibləri məşğul olurdular. Bu vəzifə irsi olsa da hər dəfə xan tərəfindən yenidən təsdiq edilirdi.

Azərbaycanın başqa xanlıqlarında olduğu kimi, İrəvan xanlığında da idarəçilik monarxiya sistemi əsasında həyata keçirilirdi. Xanlığın başında qeyri-məhdud hakimiyyətə malik olan xan dururdu. Bütün hakimiyyət-qanunverici, icraedici və məhkəmə hakimiyyəti xanın əlində cəmlənmişdi.

Beləliklə, İrəvan xanlığının bütün inzibati quruluşu və idarəçilik sistemi bir daha onun Azərbaycan dövlətçilik ənənəsinə söykəndiyini deməyə əsas verir.



*Cədvəl 2*

**İrəvan xanlığının mahalları:**
*ermənilər tərəfindən dəyişdirilmiş adı və müasir dövrdə lokalizə olunduğu ərazilər*

| № | Əvvəlki adı | Dəyiş-diril-miş adı | Fərmanın verildiyi tarix | Mahalların müasir dövrdə lokalizə olunduğu ərazilər* |
|---|---|---|---|---|
| 1 | Qırxbulaq | Akunk | 03.01.1935 | mahalın ərazisi indiki Kotayk vilayətinin keçmiş Kotayk (Abovayan) rayonunun ərazisinin bir hissəsinə uyğun gəlir. |
| 2 | Zəngibasar | Masis | 15.03.1953 | mahalın ərazisi indiki Ararat vilayətinin keçmiş Masis (Zəngibasar) rayonunun ərazisinə uyğun gəlir. |
| 3 | Gərnibasar | Artaşad | | mahalın ərazisi indiki Ararat vilayətinin keçmiş Arta-şad (Qəmərli) rayonunun ərazisinə uyğun gəlir. |
| 4 | Vedibasar (Vadi) | Ararat | 15.05.1968 | mahalın ərazisi indiki Ararat vilayətinin keçmiş Ararat (Vedi) rayonunun ərazisinə uyğun gəlir. |
| 5 | Şərur | | | mahalın ərazisi hazırda Naxçıvan MR-in Sədərək rayonunun ərazisinə uyğun gəlir. |
| 6 | Sürməli | | | mahalın ərazisi hazırda Türkiyənin İğdır vilayətinin ərazisinə uyğun gəlir. |

* İrəvan xanlığına məxsus mahalların müasir dövrdə lokalizə olunduğu bölgələrə uyğunluğunu t.ü.f.d. N.Mustafa tədqiq etmişdir. Bax: http://www.iravan.info/inzibati_erazi.html





| | | | | |
|---|---|---|---|---|
| 7 | Dərəkənd-Parçenis | | | mahalın ərazisi hazırda Türkiyənin Qars vilayətinin Kağızman ilcəsinin ərazisinin bir hissəsinə uyğun gəlir. |
| 8 | Səədli | | | mahalın ərazisi indiki Armavir vilayətinin keçmiş Hoktemberyan (Sərdarabad) rayonunun ərazisinin bir hissəsinə uyğun gəlir. |
| 9 | Talın | | | mahalın ərazisi indiki Araqasotn vilayətinin keçmiş Talın rayonunun ərazisinə uyğun gəlir. |
| 10 | Seyidli-Axsaxlı | | | mahalın ərazisi indiki Araqasotn və Ararat vilayətlərinin keçmiş Əştərək, Talın, Abaran rayonlarının həmsərhəd ərazisidir. |
| 11 | Sərdarabad | Hoktember | 03.01.1935 | mahalın ərazisi indiki Armavir vilayətinin keçmiş Hoktemberyan (Sərdarabad) rayonunun ərazisinə uyğun gəlir. |
| 12 | Qərbibasar (Körpübasar) | Eçmiədzin | | mahalın ərazisi indiki Armavir vilayətinin keçmiş Eçmiədzin rayonu və indiki Ararat vilayətinin keçmiş Əştərək rayonunun ərazilərinə uyğun gəlir. |
| 13 | Abaran | Aparan | 03.01.1935 | mahalın ərazisi indiki Araqasotn vilayətinin keçmiş Abaran rayonunun ərazisinin bir hissəsinə uyğun gəlir. |
| 14 | Dərəçiçək | Tsaxkadzor | 10.09.1946 | mahalın ərazisi indiki Kotayk vilayətinin keçmiş Hrazdan (Axta) rayonunun ərazisinə uyğun gəlir. |
| 15 | Göyçə | Sevan | | mahalın ərazisi indiki Gexarkunik vilayətinin keçmiş Martuni (Aşağı Qaranlıq), Sevan, Vardenis (Basarkeçər), Krasnoselo (bir hissəsi) rayonlarının ərazisinə uyğun gəlir. |




*Şəkil 24.* *İrəvan Xanlığı (mahallar)*




**Xəritə.2.** İrəvan xanlığının sxem-xəritəsi




***Mənbə:*** Григорян З.Т. Присоединение Восточной Армении к России в начале XIX в. Москва, 1959, с.143

İrəvan
XANLIĞI

# İRƏVAN XANLIĞININ
# MAHALLARI

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "İrəvan xanlığının tarixinə dair 4 adda broşürün nəşr olunması" layihəsi çərçivəsində Azərbaycan Tarixçiləri İctimai Birliyi tərəfindən nəşr edilmişdir.

**Azərbaycan Tarixçiləri İctimai Birliyi**
AZ1065, Bakı., B.Bağırova küç., 7, m.29.
E-mail: mxanbabayeva@mail.ru. Mob. (055) 353-02-33
Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutunun mətbəəsində çap edilmişdir.
Bakı şəh., H.Cavid pros., 125.